

# Məktəbəqədər təhsil müəssisələrində təlimin səmərəli təşkilində idarəetmə və pedaqoji ünsiyyətin rolu


**Sədaqət RƏHİMOVA,**
*Bakıdakı 240 nömrəli körpələr evi-uşaq bağçasının müdiri, pedaqogika üzrə fəlsəfə doktoru*


Müasir dövrdə Azərbaycanın dünyəvi, demokratik və hüquqi dövlət kimi formalaşması, onun təhsil sisteminin inkişaf etmiş ölkələrin təhsil sisteminə inteqrasiya edilməsi mühüm rol oynayır. Azərbaycan Respublikasının təhsil sisteminin əsas vəzifəsi yüksək intellektual hazırlığa malik olan, qazandığı biliklərdən həyatın müxtəlif sahələrində istifadə etməyi bacaran mütəxəssisin, dünyagörüşü hərtərəfli inkişaf etmiş, milli və ümumbəşəri mənəvi keyfiyyətlərə yiyələnmiş, müstəqil varlığa şüurlu münasibət bəsləyən yaradıcı şəxsiyyətin, əsl vətəndaşın yetişdirilməsindən ibarətdir.

Müasir dövrdə təhsilin keyfiyyətinin yüksəldilməsi, yeni yanaşmaların, fəal təlim metodlarının tətbiqi və onlardan səmərəli istifadənin təşkili ən vacib məsələ kimi qiymətləndirilir.

Məktəbəqədər təhsilin sürətlə inkişaf etdirilməsi və onun beynəlxalq standartlara tam uyğunlaşdırılması məqsədi ilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 12 aprel 2007-ci il tarixli 2089 nömrəli sərəncamı ilə "Azərbaycan Respublikasında məktəbəqədər təhsilin yeniləşdirilməsi Proqramı" təsdiq edilmişdir. Proqramda məktəbəqədər təhsilin məzmununun yeniləşdirilməsi bir vəzifə olaraq qarşıya qoyulmuş və onun icrası istiqamətində mühüm işlər görülmüşdür.

Respublikamızda məktəbəqədər təhsilin məzmunu yeniləşdirilərkən uşaqyönümlülük; nəticəyönümlülük və inteqrativlik əsas götürülmüşdür. Bu öz əksini 16 iyul 2010-cu il tarixində Nazirlər Kabineti tərəfindən qəbul olunmuş "Məktəbəqədər təhsilin dövlət standartı və proqramının təsdiq edilməsi haqqında" qərarda da tapmışdır. Sənəddə təsdiq olunmuş standartların reallaşdırılması üçün nümunəvi təlim strategiyaları və qiymətləndirmə mexanizmləri verilmişdir.

Məktəbəqədər təhsil proqramı (kurikulumu) Azərbaycan Respublikası təhsil nazirinin 10.07.2012-ci il tarixli, 1329 nömrəli əmri ilə təsdiq olunmuşdur. Bu sənəd məzmununda üç mühüm parametri əhatə edir. O parametrlərdən birincisi yeni məzmundur. Burada məktəbəqədər təhsilin standartları əhatə olunmuşdur. Müasir tələblərə cavab verən bu standartlar 3-6 yaşda olan uşaqların inkişaf istiqamətləri üzrə qruplaşdırılmaqla inteqrativ xarakter daşıyır. Orada kiçikyaşlı uşaqların əqli, hissi və fiziki inkişafı ilə bağlı bacarıqlar əhatə edilir. Müəyyən olunmuş nəticələrdə standartlardan ibarət bu məzmun təhsilin başlanğıc pilləsində nəinki uşaqların inkişafının istiqamətləndirilməsi, eyni zamanda bir təşkilat kimi məktəbəqədər təhsil müəssisəsinin müasir texnologiyalara əsasən idarə olunmasına imkan yaradır.

Proqramın ikinci hissəsi "Təlim strategiyası" adlanır ki, burada da təhsil prosesində istifadə olunması tövsiyə olunan texnologiyalar verilir. İlk növbədə əsas tələblər, daha sonra iş formaları, üsullar, planlaşdırma nümunələri və valideynlərlə əlaqə məsələləri əhatə olunur. Müəyyən olunmuş standartların reallaşdırılması üçün texnologiyalardan istifadə etməkdə məktəbəqədər təhsil müəssisəsinin əməkdaşlarına sərbəstlik verilir. Onlar müəyyənləşdirdikləri məqsədlərin həyata keçirilməsi üçün mövcud strategiyalara yaradıcı yanaşmaqda, yaxud müasir tələblərə uyğun texnologiyalar hazırlamaqda səlahiyyətlidirlər.

Proqramın üçüncü hissəsində uşaqların inkişafının izlənməsinə və dəyərləndirilməsinə dair qiymətləndirmə texnologiyaları əhatə olunur. Bu texnologiyaların əhəmiyyətliliyi baxımından həm məktəbəqədər təhsil mütəxəssislərinin, həm də valideynlərin bilməsi zəruri hesab edilir.

Məktəbəqədər təhsil sisteminin inkişafı Azərbaycan Respublikasının dövlət təhsil siyasətinin strateji istiqamətlərindən biridir. Bu gün respublikamızda məktəbəqədər təhsil məsələlərinə dövlət səviyyəsində əhəmiyyətli dərəcədə diqqət ayrılır. Azərbaycan Respublikasında təhsilin digər pillələri ilə yanaşı məktəbəqədər təhsil sistemində baş verən müasir proseslər müxtəlifdir və mühüm vəzifələrin həllinə yönəlib. Bunlar da məktəbəqədər təhsil sistemində yeni yanaşmaların tətbiqini və təlim prosesinin təşkili üçün yeni səmərəli formaların axtarılmasını tələb edir.

Məktəbəqədər təhsil sisteminin birinci pilləsi, cəmiyyətin inkişafının başlanğıc mərhələsidir. Təhsil sistemində müvəffəqiyyətlər, cəmiyyətin gələcəyi bu ilkin pillədə işin düzgün təşkilindən, uğurlu nəticələrin alınmasından asılıdır.

Bu nəcib və şərəfli iş biz məktəbəqədər təhsil müəssisələrinin üzərinə düşür. Hər bir müəssisə rəhbəri və orada çalışan pedaqoji işçilər dərin təfəkkürə və yaradıcılıq qabiliyyətinə malik olmalıdır. Mən bir müəssisə rəhbəri kimi fəaliyyət planına əsasən üç fəaliyyət sahəsinə: pedaqoji, ictimaiyyətlə əlaqə və inzibati - təsərrüfat işlərinə rəhbərlik edirəm. Hər bir fəaliyyət sahəsinin idarə olunmasında ümumi cəhətlərlə yanaşı fərdi xüsusiyyətlər də mövcuddur. Ona görə də mən yalnız pedaqoji kollektivin idarə olunması üzərində dayanmağı məqsədəuyğun hesab edirəm.

Məlum olduğu kimi, idarəetmə mədəniyyəti çoxsaylı anlayışdır. Bu, rəhbərin şəxsi inkişaf və peşəkarlıq keyfiyyətlərinin sintezi, idarəetmənin sosial-psixoloji, təşkilati funksiyanı əhatə edir.

Müşahidələr göstərir ki, müasir dövrdə pedaqoji kollektivi o rəhbər işçilər daha müvəffəqiyyətlə idarə edirlər ki, özləri daim təkmilləşir, inkişaf edir, insanlarla ünsiyyət qurmağı, kollektiv üzvlərini vahid məqsəd ətrafında birləşdirməyi bacarıb, yeniliyi öyrənib öz işinə tətbiq edə bilir. Göstərilən bu keyfiyyət və bacarıqlara sahib olan rəhbər həm də kollektivin lideri funksiyasını yerinə yetirir.

Pedaqoji kollektivin daha səmərəli idarə olunması üçün mən, ilk növbədə, tədris ilinin əvvəlində fəaliyyət planı əsasında kollektiv üzvləri arasında düzgün və konkret vəzifə bölgüsü aparıram. Bu zaman onların şəxsi keyfiyyətlərini, ünsiyyət qura bilmək bacarıqlarını nəzərə alıram. İl ərzində 4, lazım gəldikcə isə növbədənkənar pedaqoji şura çağırılır. Tədris ili üçün əsas götürülmüş vəzifələrin məzmununa uyğun məruzələr dinlənilir. Kadrlarla ilboyu iş aparılır, rayon, şəhər və respublika üzrə keçirilən seminarlarda, konfranslarda iştirak təmin olunur.

İl ərzində 3 açıq məşğələ, 4 kollektiv baxış keçirilir. Pedaqoji kollektivlə məsləhət saatları təşkil olunur.

İl ərzində bir seminar praktikum keçirilir. Eyni zamanda qabaqcıl iş təcrübəsinin öyrənilməsi, ümumiləşdirilməsi, tətbiq edilməsi sahəsində işlər aparılır.

Təlim-tərbiyə işinə nəzarətdə il ərzində bir tematik yoxlama, bir hərtərəfli yoxlama aparılır və arayışları pedaqoji şurada müzakirə edilir. Metodkabinetin zənginləşməsi üçün vaxtaşırı bütün qruplar üçün planlar, ssenarilər, müxtəlif materiallar hazırlanıb toplanır.

Hər həftənin 5-ci günü tərbiyəçilərin və musiqi rəhbərinin qarşıdan gələn həftə üçün iş planları yoxlanıb təsdiq edilir.

Məktəbəqədər təhsil müəssisələrində uşaqlarla aparılan əsas fəaliyyət növləri oyun, təlim və əməkdir. Təlim başlıca olaraq intellektual zənginliyə, tərbiyə isə əxlaqi saflığa, fiziki kamilliyə xidmət edir.

Təlimin təşkilat forması məşğələdir. Məşğələlər tərbiyəçinin rəhbərliyi altında uşaqlara bilik, bacarıq və vərdişlərin verilməsini təmin edir. Mən müəssisə rəhbəri kimi həftədə 3 dəfə məşğələləri, 2 dəfə isə məşğələdən kənar fəaliyyət növlərini müşahidə edərək, təhlillər aparıram, lazım gəldikdə metodiki köməkliklər göstərirəm.

Metodikanı, uşaqların yaş, fərdi - psixoloji xüsusiyyətlərini bilməyən, öz peşəsinin ustası olmayan tərbiyəçilər uşaqlarla təlim prosesini normal təşkil edə bilmir. Uşaqların fərdi xüsusiyyətlərini, imkanlarını, istək və arzularını nəzərə alan müasir təlim metodları və texnologiyalardan istifadə edərək, məşğələni maraqlı keçən tərbiyəçilər iş prosesində müvəffəqiyyət əldə edə bilirlər. Uşaqlara müstəqil, yaradıcı düşünməyi öyrətmək müasir dövrdə təlimə verilən sosial tələblərdəndir. Tərbiyəçi uşağın ona və öz yoldaşlarına sual verməlerinə, dialoqa qoşulmalarına imkan yaratmalı, onu düşünməyə məcbur etməli, təfəkkürünü inkişaf etdirməli, mühakimə yürütməyi öyrətməlidir.

Tərbiyəçi pedaqoji elmin inkişafına qoşulmalı, daim yeni üsul və vasitələr, iş forması axtarmalı, özünün peşə səviyyəsini artırmalı, özünütərbiyəyə səy göstərməli, həmkarları ilə təcrübə mübadiləsi etməli, qabaqcıl təcrübəni yaymalıdır.

Beləliklə, məktəbəqədər yaşlı uşaqlarla təlim-tərbiyə işini səmərəli təşkil etmək üçün tərbiyəçi daim öz üzərində işləməli, elmi-nəzəri, metodiki biliklərini artırmalı, demokratik ünsiyyət üslubuna yiyələnməlidir.